**Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən hüquqi və fiziki şəxslərə verilən icazələr barədə məlumat**

| Xidmətin adı | Tələb olunan sənədlərin siyahısı |
|---|---|
| **200 kilovatdan yuxarı elektrik qurğularının istismara buraxılış aktının verilməsi** | 1) ərizə;<br>2) ötürücü və ya paylayıcı sistem operatorunun verdiyi texniki şərt;<br>3) ötürücü və ya paylayıcı sistem operatoru ilə razılaşdırılmış enerji təchizatı layihəsi;<br>4) tikinti-quraşdırma işlərini aparmış şəxslə sifarişçi arasında təhvil-təslim aktı;<br>5) elektrik təsərrüfatına cavabdeh şəxsin təyin olunması barədə əmrin surəti;<br>6) kontur torpaqlama müqavimətinin ölçülməsi protokolu;<br>7) transformatorun və avadanlıqların sınaq-sazlama protokolu;<br>8) elektrik veriliş xəttinin sınaq protokolu və qapalı işlər aktı;<br>9) elektrik sayğacının quraşdırılması aktı;<br>10) ərizəçi hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi olduqda, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surəti;<br>11) ərizəçi fərdi sahibkar olduqda, şəxsiyyət vəsiqəsinin surəti;<br>12) ərizəçinin vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti;<br>13) ərizədə qeyd olunan obyektlərdən hər biri üzərində ərizəçinin mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənədin surəti (əgər lisenziya tələb olunan fəaliyyətin həyata keçirilməsi və icazə tələb olunan hərəkətin yerinə yetirilməsi obyektlə bağlıdırsa). |